# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 11-12 (201-202) 325-326
Noyabr-dekabr 2024-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti



*"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".*

**Heydər Əliyev**

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2024-cü il dekabrın 25-də Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Rusiya Federasiyasının hava məkanında kənar fiziki və texniki müdaxiləyə məruz qalaraq idarəetməni itirmiş vəziyyətdə Qazaxıstan Respublikasının Aktau şəhəri istiqamətinə yönləndirilmişdir. İnsan tələfatı və xəsarət alanlar olmasına baxmayaraq, pilotların, bələdçilərin yüksək peşəkarlığı, şücaəti və cəsurluğu sayəsində təyyarə qəza enişi həyata keçirmiş və sərnişinlərin bir qismi xilas edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Bakı–Qroznı (Rusiya Federasiyası) reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycanın Milli Qəhrəmanı" adı ilə:**

Kşnyakin İqor İvanoviç (ölümündən sonra)
Kalyaninov Aleksandr Georgiyeviç (ölümündən sonra)
Əliyeva Hökumə Cəlil qızı (ölümündən sonra)

**1-ci dərəcəli "Rəşadət" ordeni ilə:**

Əsədov Zülfiqar Sərdar oğlu
Rəhimli Aydan Vaqif qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2024-cü il*

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təyyarə qəzasında həlak olan ekipaj üzvlərinin vida mərasimində iştirak edib





Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı-Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mərasimində iştirak edib, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.




## AZAL-a məxsus "Embraer 190" sərnişin təyyarəsi qəzaya uğrayıb



**"Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin Aktau şəhərində qəzaya uğraması nəticəsində 38 nəfər həlak olub, 29 nəfər isə yaralanıb.**

Dekabrın 25-də Bakı-Qroznı marşrutu üzrə uçan "Embraer 190" sərnişin təyyarəsi Aktaunun hava limanından 3 km məsafədə qəzaya uğrayıb. Təyyarənin göyərtəsində 37 Azərbaycan, 6 Qazaxıstan, 3 Qırğızıstan, 16 Rusiya vətəndaşı olub.

AZAL-dan bildirilib ki, Aktau şəhərində qəzaya uğrayan Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsində 62 sərnişin, 5 ekipaj üzvü olmaqla, ümumilikdə 67 nəfər olub.



Xatırladaq ki, dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

# Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi keçirilib

**Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş Sammitdə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.**

**Qarşılanma mərasimindən sonra birgə foto çəkdirildi.**

**Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində çıxış etdi.**

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI




- Hörmətli BMT-nin Baş katibi.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.

Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir.

Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10-15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.

Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, – mən beynəlxalq medianı nəzərdə tuturam, – mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!

**Sağ olun.**

# 8 Noyabr - Zəfər Günü tariximizin qəhrəmanlıq salnaməsidir

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsindəki şanlı zəfərindən 4 il ötür.**










Təcavüzkar Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, düşmən işğalı altında olan torpaqlarımızı azad etmək məqsədilə 2020-ci ilin sentyabrın 27-dən etibarən başlanılan zəfər yürüşü noyabrın 8-də böyük tarixi qələbəmizlə başa çatdı. 44 günlük hərbi əməliyyatlar nəticəsində zabit və əsgərlərimizin misilsiz şücaəti və qəhrəmanlığı, şəhidlərimizin qanı, canı bahasına 300-dən çox yaşayış məntəqəsi, o cümlədən noyabrın 8-də xalqımız üçün rəmzi xarakter daşıyan, strateji baxımdan böyük əhəmiyyət kəsb edən Şuşa şəhəri 28 illik həsrətdən sonra işğaldan azad olundu.

Prezident İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan xalqının tükənməz qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından böyük əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabr ayının 8-i ölkəmizdə Zəfər Günü kimi qeyd edilir.

Respublikamızın hər guşəsində olduğu kimi Xızı rayonunda da 8 Noyabr - Zəfər Günü böyük coşqu, qürur və iftixar hissi ilə qarşılanıb.

Noyabrın 8-də səhər saatlarında Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin kollektivləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri Xızı şəhərinin mərkəzindən "Şəhidlər Xiyabanı" abidə kompleksinədək yürüş ediblər.

Yürüş iştirakçıları abidə kompleksinin önünə tər gül-çiçək dəstələri düzüblər. Vətənimizin bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub.

Yürüş iştirakçılarının qarşısında çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olan Vətən övladlarının xatirəsinin daim yaddaşlarda qalacağını, məhz onların göstərdikləri şücaət, igidlik nəticəsində torpaqlarımızın işğaldan azad olunduğunu, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmən üzərində qələbə çalaraq öz qüdrətini bütün dünyaya sübut etdiyini, şəhidlərimizin qanlarının yerdə qalmadığını diqqətə çatdırıb.

Tədbir geniş bayram proqramı ilə davam etdirilib.

**"XIZI", R.M.**
**8 noyabr 2024-cü il**



# "Zəfər yaraşan Azərbaycanım" adlı tədbir keçirilib



**Xızı Rayon İcra Hakimiyyətinin, Abşeron-Xızı Regional Təhsil İdarəsinin, Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə Xızıda 8 Noyabr -Zəfər Gününə həsr olunmuş "Zəfər yaraşan Azərbaycanım" adlı geniştərkibli bayram tədbiri keçirilib.**





Tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva, Abşeron-Xızı Regional Məşğulluq İdarəsinin müdiri Əbdül Bayramov, ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər, həmçinin rayon ərazisiundə fəaliyyət göstərən ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

Tədbir iştirakçıları, əvvəlcə, Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək dahi şəxsiyyətin xatirəsini anıblar. Daha sonra "Şəhidlər xiyabanı" abidə kompleksinin önünə toplaşan ziyarətçilər tərəfindən şəhidlərimizin əziz və əbədi xatirəsi böyük ehtiramla yad edilib. Abidələrin önünə tər gül-çiçək dəstələri qoyulub.

Tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Abdulla Hüseynov, Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva, Abşeron-Xızı Regional Məşğulluq İdarəsinin müdiri Əbdül Bayramov, şəhid Elməddin Cəfərovun anası Zəhra Cəfərova və qazi Kamran Baxşizadə çıxış ediblər. Çıxışlarda 8 Noyabr - Zəfər Gününün Azərbaycan xalqı üçün tarixi əhəmiyyətindən, 44 günlük Vətən savaşının qələbə ilə başa çatmasının rəşadətli Azərbaycan Ordusunun və xalqın birliyinin rəmzinə çevrildiyindən söhbət açılıb, şəhidlərimizin və qazilərimizin göstərdikləri qəhrəmanlıqlardan və xalqımıza verdikləri töhfələrdən bəhs olunub. Eləcə də gənclərin vətənpərvərlik ruhunun artırılması istiqamətində belə tədbirlərin önəmi vurğulanıb.

Tədbirin rəsmi hissəsində Xızı məktəblilərinin əl işlərindən ibarət "Zəfər yolu" adlı rəsm sərgisi nümayiş olunub.

Məktəblilərin ifasında "Zəfər rəqsi", "Qarabağ Azərbaycandır!", "Zəfər mahnısı" kimi musiqi və rəqs nömrələri, "Böyük Qayıdış" şeir kompozisiyası tədbirin bədii hissəsinə əlavə çalar qatıb. Mahnı, rəqs, şeir təqdimatları hər dəfə tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**"XIZI", R.M.**
**4 noyabr 2024-cü il**

## *Ümummilli Lider Heydər Əliyevin vəfatından 21 il ötür*

# Ümummilli Lider Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Xızıda ümumrayon anım mərasimi keçirilib

**Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi şəxsiyyətlər var. O dahilər mənsub olduqları xalqı öz arxasınca apararaq, ən çətin, taleyüklü məqamlarda lider rolu oynamışlar.**

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş müdrik şəxsiyyət, uzaqgörən dövlət xadimi kimi düşmüşdür.

Ulu Öndər Heydər Əliyevin həyat yolu yüksək insani və əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunəvi məktəbdir. Dahi liderin Azərbaycana rəhbərlik etdiyi illər tariximizə intibah, milli oyanış, milli qurtuluş, milli inkişaf, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi həkk olunub. Azərbaycan xalqı hər il 12 dekabrı Ümummilli Lider Heydər Əliyevin anım günü kimi böyük minnətdarlıq və ehtiram hissi ilə qeyd edir. Tarixə silinməz iz qoymuş qüdrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyəti hər bir azərbaycanlının qürur mənbəyinə çevrilmişdir.

Dekabrın 12-də ölkəmizin hər yerində olduğu kimi Xızı rayonunda da Ümummilli Lider Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib.





**Dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Xızıda ümumrayon anım mərasimi keçirilib.**



Mərasimdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, eləcə də rayonda fəaliyyət göstərən idarə, təşkilat, müəssisələrin rəhbərləri və əməkdaşları, ağsaqqallar, ziyalılar, şəhid ailələri və qazilər iştirak ediblər. Mərasim iştirakçıları, əvvəlcə, Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək, önünə tər gül dəstələri düzüblər. Ulu Öndərin işıqlı xatirəsi böyük sayğı və dərin ehtiramla yad edilib.

Daha sonra Xızı Rayon İcra Hakimiyyətinin başçısı adından Ulu Öndər Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar ehsan süfrəsi təşkil olunub. Ehsan süfrəsi ətrafına toplaşanlar dahi şəxsiyyət və müdrik siyasətçinin ruhuna dualar oxuyublar.

**"XIZI", R.M.**
**12 dekabr 2024-cü il**

# "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda "dəyirmi masa"keçirilib

**Dekabrın 12-də Xızı Rayon İcra Hakimiyyətinin akt zalında "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının fəalları, RİHBA-nın işçiləri, digər rəsmi şəxslər iştirak ediblər.**



Əvvəlcə, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov çıxış edib. O bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş, çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, qüdrətli şəxsiyyətdir.

Çıxışda Azərbaycan xalqının yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyduğu, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycanın Heydər Əliyevin ideyalarının təntənəsi olduğu vurğulanıb.

Daha sonra YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev öz çıxışında Sovetlər birliyinin dağılmasından və Azərbaycanın müstəqillik əldə etməsindən sonra dövlətçilik ənənələrinin formalaşmasında mühüm işlər görmüş Ulu Öndər Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq ölkəmizdə yeni yaranan azərbaycançılıq ideologiyasının mühüm elementlərinin inkişaf etdirilməsində əvəzsiz xidmətlər göstərdiyini qeyd edib. Ayaz Quliyev bildirib ki,

Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxslər üçün yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrilmişdir.

Tədbirdəki çıxışlarda Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən geniş bəhs olunub.

**"XIZI", R.M.**
**12 dekabr 2024-cü il**

*Xızı Rayon İcra Hakimiyyəti başçısının 03 dekabr 2024-cü il tarixli 5-50/3-3-55/2024 saylı Sərəncamı ilə təsdiq edilmişdir.*

**29 yanvar 2025-ci il tarixdə keçiriləcək Bələdiyyə seçkiləri ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Xızı rayonunda müəyyən edilmiş açıq və qapalı yerlər barədə**

# MƏLUMAT

| Sıra N-si | Bələdiyyənin adı | Əhatə etdiyi ərazi vahidləri | Şəhər, rayon | DSK-nın kodu | Açıq yer (ünvanı) | Tutumu | Qapalı yer (ünvanı) | Tutumu |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | Giləzi bələdiyyəsi | Giləzi | Xızı rayonu Giləzi qəsəbəsi | 55 saylı Siyəzən-Quba-Xızı | Giləzi qəsəbə futbol meydançası | 1000 nəfər | Giləzi qəsəbə Folklor klubu | 120 nəfər |
| 2. | | Məşədi Həsən | Xızı rayonu Məşədi Həsən kəndi | | Kəndin girişində yerləşən istixananın ətrafındakı boş ərazi | 100 nəfər | | |
| 3. | | Sitalçay | Xızı rayonu Sitalçay kəndi | | Sitalçay kənd tam orta məktəbinin qarşısındakı meydan | 600 nəfər | Sitalçay kəndi | 60 nəfər |
| 4. | | Şorabad | Xızı rayonu Şorabad qəsəbəsi | | Şorabad qəsəbə futbol meydançası | 600 nəfər | | |
| | | Türkoba | Xızı rayonu Türkoba kəndi | | | | Türkoba kənd ümumi orta məktəbi | 90 nəfər |
| | | Yaşma | Xızı rayonu Yaşma kəndi | | Kəndin girişində sol tərəfdəki boş ərazi | 50 nəfər | | |
| 5. | | Yeni Yaşma | Xızı rayonu Yeni Yaşma kəndi | | Yeni Yaşma kənd tam orta məktəbinin qarşısındakı meydan | 350 nəfər | — | — |
| 6. | Xızı bələdiyyəsi | Ağdərə | Xızı rayonu Ağdərə kəndi | | Ağdərə kənd ümumi orta məktəbinin qarşısındakı meydan | 100 nəfər | — | — |
| | | Tudar | Xızı rayonu Tudar kəndi | | Kəndin girişində yolun sağ tərəfindəki boş ərazi | 50 nəfər | | |
| | | Qasımkənd | Xızı rayonu Qasımkənd kəndi | | Kəndin girişində yolun sol tərəfindəki boş ərazi | 50 nəfər | | |
| | | Əmbizlər | Xızı rayonu Əmbizlər kəndi | | Kəndin girişində yolun sol tərəfindəki boş ərazi | 50 nəfər | | |
| | | Yuxarı Əngilan | Xızı rayonu Yuxarı Əngilan kəndi | | Kəndin girişində yolun sağ tərəfindəki boş ərazi | 50 nəfər | | |
| 7. | | Altıağac | Xızı rayonu Altıağac qəsəbəsi | | Altıağac qəsəbə tam orta məktəbinin qarşısındakı meydan | 500 nəfər | — | — |
| | | Safbulaq | Xızı rayonu Safbulaq kəndi | | Kəndin girişində sağ tərəfdəki boş ərazi | 50 nəfər | | |
| | | Qızılqazma | Xızı rayonu Qızılqazma kəndi | | Kəndin girişində sol tərəfdəki boş ərazi | 50 nəfər | | |
| | | Yarımca | Xızı rayonu Yarımca kəndi | | Kəndin girişində sağ tərəfdəki boş ərazi | 50 nəfər | | |
| 8. | | Baxşılı | Xızı rayonu Baxşılı kəndi | | Baxşılı kənd ümumi orta məktəbinin qarşısındakı meydan | 50 nəfər | — | — |
| | | Bəyəhmədyurd | Xızı rayonu Bəyəhmədyurd kəndi | | Kəndin girişində sol tərəfdəki boş ərazi | 50 nəfər | | |
| | | Güneyqışlaq | Xızı rayonu Güneyqışlaq kəndi | | Kəndin girişində sağ tərəfdəki boş ərazi | 50 nəfər | | |
| | | Vərdah | Xızı rayonu Vərdah kəndi | | Kəndin girişində sol tərəfdəki boş ərazi | 50 nəfər | | |
| 9. | | Fındığan | Xızı rayonu Fındığan kəndi | | Fındığan kənd tam orta məktəbinin qarşısındakı meydan | 250 nəfər | — | — |
| 10. | | Qarabulaq | Xızı rayonu Qarabulaq kəndi | | Qarabulaq kənd ümumi orta məktəbinin qarşısındakı meydan | 200 nəfər | — | — |
| | | Dizəvər | Xızı rayonu Dizəvər kəndi | | Kəndin girişində sağ tərəfdəki boş ərazi | 50 nəfər | | |
| 11. | | Tıxlı | Xızı rayonu Tıxlı kəndi | | Tıxlı kənd ümumi orta məktəbinin qarşısındakı meydan | 200 nəfər | Tıxlı kənd klubu | 30 nəfər |
| | | Əngilan | Xızı rayonu Əngilan kəndi | | Kəndin girişində sağ tərəfdəki boş ərazi | 50 nəfər | | |
| 12. | | Qars | Xızı rayonu Qars kəndi | | Kəndin girişində sol tərəfdəki boş ərazi | 50 nəfər | | |
| | | Təzəkənd | Xızı rayonu Təzəkənd kəndi | | Kəndin girişində sağ tərəfdəki boş ərazi | 50 nəfər | | |
| 13. | | Xələnc | Xızı rayonu Xələnc kəndi | | Xələnc kənd ümumi orta məktəbinin qarşısındakı meydan | 200 nəfər | — | — |
| 14. | | Xızı | Xızı rayonu Xızı şəhəri | | Xızı şəhərinin girişində sağ tərəfdə C.Cabbarlı parkı ilə üzbəüz boş ərazi<br>Xızı şəhər tam orta məktəbinin stadionu | 2000 nəfər<br>120 nəfər | Uşaq Gənclər İdman Şahmat Məktəbi | 70 |

## Xızı Rayon İcra Hakimiyyəti başçısının 2025-ci ilin yanvar ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Altıağac qəsəbəsi | Altıağac qəsəbə tam orta məktəbinin binası | 08.01.2025 | 11:00 |
| 2 | | Xələnc kəndi | Xələnc kənd ümumi orta məktəbinin binası | 10.01.2025 | 11:00 |
| 3 | | Məşədi Həsən kəndi | Məşədi Həsən bələdiyyəsinin inzibati binası | 15.01.2025 | 11:00 |
| 4 | | Tıxlı kəndi | Tıxlı kəndi ümumi orta məktəbinin binası | 17.01.2025 | 11:00 |

# Xızı Rayon İcra Hakimiyyətinin başçısı sakinlərlə səyyar görüş-qəbullar keçirir




Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov 2025-ci ilin noyabr və dekabr ayları üçün təsdiq olunmuş qrafiklərə əsasən, noyabrın 1-də Sitalçay kəndində, noyabrın 15-də Xızı şəhərində, noyabrın 20-də Fındığan kəndində, dekabrın 4-də Baxşılı kəndində, dekabrın 5-də Türkoba kəndində, dekabrın 18-də Yeni Yaşma kəndində və dekabrın 20-də Qarabulaq kəndində sakinlərlə səyyar görüş-qəbullar keçirib.

Yerlərdə vətəndaşlarla keçirilən səyyar görüş-qəbullarda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovla yanaşı Xızı RİHB-nın müavini Arzu Əzizov, Xızı RİHBA-nın məsul əməkdaşları, eləcə də müvafiq idarə, təşkilat və müəssisələrin rəhbərləri iştirak ediblər.

**"XIZI", R.M.**




# Xızıda "Mülki müdafiə sahəsində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilmişdir




**Dekabrın 19-da Xızı Rayon İcra Hakimiyyəti və Fövqəladə Hallar Nazirliyi Sumqayıt Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Xızıda "Mülki müdafiə sahəsində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilib.**

Müşavirədə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında Xızı RİHBA-nın işçiləri, rayonda fəliyyət göstərən hüquq-mühafizə orqanlarının, digər idarə, təşkilat və müəssisələrin, yerli özünüidarəetmə qurumlarının rəsmiləri, eləcə də Fövqəladə Hallar Nazirliyi Sumqayıt Regional Mərkəzinin nümayəndələri iştirak ediblər.

Xızı Rayon İcra Hakimiyyətinin akt zalında keçirilən tədbirdə Xızı rayonunun ərazisində yarana biləcək təbii fəlakətlər zamanı kompleks tədbirlərin həyata keçirilməsi, mövcud problemlər və qarşıda duran vəzifələr barədə geniş müzakirələr aparılıb.

Sonda Fövqəladə Hallar Nazirliyinin yaranmasının 19-cu ildönümü münasibətilə xidmətdə fərqlənmiş bir qrup əməkdaş Xızı Rayon İcra Hakimiyyətinin fəxri fərmanları ilə təltif ediliblər.

**"XIZI", R.M.**
**19 dekabr 2024-cü il**

# Xızı Rayon Prokurorluğunun 2025-ci ilin yanvar-mart ayları ərzində vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair

# QRAFİKİ

| Sıra №-si | Vətəndaşların qəbulu keçirilən ərazi | Qəbulun keçirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Xızı RİHB-nın Giləzi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 27.01.2025-ci il 11:00 - 13:00 | Xızı rayon prokuroru Xəyalə Aslanova |
| 2. | Xızı RİHB-nın Fındığan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 17.02.2025-ci il 11:00 - 13:00 | Xızı rayon prokuroru Xəyalə Aslanova |
| 3. | Xızı RİHB-nın Sitalçay kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 17.03.2025-ci il 11:00 - 13:00 | Xızı rayon prokuroru Xəyalə Aslanova |

# Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin hüquqi aspektləri

**"Narkotik vasitə, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ilə bağlı törədilən hər hansı hərəkətlərdir."**

**Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında Qanun**

Hər kəsə məlumdur ki, narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlər transmilli xarakter daşıyır. Bu baxımdan dünya dövlətlərinin əsas məsələlərdən biri narkomanlığa və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı səmərəli mübarizənin təşkil edilməsidir. Dövlətimiz bu sahədə beynəlxalq mübarizəyə çoxdan qoşulmuş, narkomanlıqla mübarizə sahəsində təşkilati-hüquqi, institusional və praktiki tədbirlər həyata keçirmişdir və həyata keçirməkdə də davam etdirir.

Narkomanlığın fəsadlarını geniş şərh etməyə ehtiyac yoxdur. Artıq məlumdur ki, dinindən, dilindən, irqindən, sosial vəziyyətindən və s. asılı olmayaraq hamı üçün, nəticədə bütün dövlətlər üçün təhlükəlidir. Narkomaniyaya qarşı mübarizə beynəlxalq əməkdaşlıq çərçivəsində aparılsa da, təəssüf ki, narkomaniyaya düçar olanların sayı ilbəil artır.

Problemin ciddiliyini vurğulamaq üçün qısa dövr üçün olan statistik məlumatlara nəzər salaq. 2023-cü ilin yanvar-iyul ayları ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi üzrə ölkə ərazisində 6696 cinayət faktı aşkar edilmişdir. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar başlanmış cinayət işlərinin istintaqı nəticəsində 4995 şəxs cinayət məsuliyyətinə cəlb edilmişdir. Qanunsuz dövriyyədən isə 5 ton 141 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə çıxarılmışdır. Qeyd edək ki, müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 186 kiloqramı ölkəmizə qaçaqmalçılıq yolu ilə gətirilmiş və cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 53 nəfəri xarici ölkə vətəndaşı olmuşdur.

Bundan əlavə, 2022-ci ilin statistikasına əsasən, Azərbaycanda 35 min 97 nəfər narkotik vasitə istifadəçisidir. Bu rəqəmlər məsələnin ölkəmiz üçün nə qədər təhlükəli və ciddi olduğunu göstərir.

Avropa və Asiya qitələrinin qovşağında yerləşən Azərbaycanın strateji coğrafi mövqeyi onun ərazisindən narkotiklərin tranzit daşınması üçün əlverişli şərait yaradır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə dair mübarizə üzrə milli risk qiymətləndirilməsinə dair hesabatda xarici mənşəli təhdid faktorları sırasında narkotik vasitələrin dövriyyəsi ilə əlaqədar məqamlar yer alır.

Narkotiklərlə mübarizənin gələcək üçün təhlükəsini bilən və uzaqgörən siyasəti ilə bütün sahələrdə islahatlar həyata keçirən Ulu Öndər Heydər Əliyev narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə sahəsində də mühüm qərarlar vermiş, islahatlar aparmışdır. İlk dəfə 26 avqust 1996-cı il tarixli "Narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" Fərmanını imzalamaqla narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin mühüm dövlət vəzifəsi kimi qəbul edilməsini bəyan etmişdir. Bu Fərman narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin hüquqi əsaslarının işlənib hazırlanmasında fundamental hüquqi mənbə rolunu oynamışdır.

Bu gün də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində istər ölkədaxili, istərsə də beynəlxalq miqyaslı tədbirlər cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, çoxsaylı qanun və qanun qüvvəli normativ hüquqi aktlar, dövlət proqramları qəbul edilmiş, dövlətlərarası iki və çoxtərəfli müqavilələr imzalanmışdır. Azərbaycan dövləti BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasına, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" və 19 dekabr 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyalarına qoşulmuşdur. 28 iyun 2005-ci ildə qeyd edilən təzahürlərə qarşı mübarizə sahəsində münasibətləri tənzimləyən yeni qanun qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli 2668 nömrəli Sərəncamı və "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli 604 nömrəli Fərmanı ilə məhkəmə-hüquq sistemində və penitensiar sahədə aparılan islahatlar çərçivəsində Cinayət Məcəlləsinin bir çox maddələri ilə yanaşı "Cinayət Məcəlləsinə dəyişiklik edilməsi haqqında" 10 oktyabr 2017-ci il tarixli və 26 aprel 2022-ci il tarixli qanunları ilə CM-nin 234 və narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə məsulyyət müəyyən edən digər normalarına mühüm dəyişikliklər edilmişdir.

Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizənin təmin edilməsi məqsədilə sayca dördüncü "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" artıq icra olunur.

Belə ki, çağırışçıların, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların, birbaşa kadr zabit heyətinə könüllü daxil olanların və həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) icbari narkoloji müayinədən keçirilməsi və bu yolla narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının 23 sentyabr 1994-cü il tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" müvafiq qanunlar qəbul edilərək 26 aprel 2022-ci il tarixində Qanun qəbul edilmişdir.

Bundan başqa, qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut hesab edilmiş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının, qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin), habelə narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək nümunə götürülməklə məhv edilməsini və ya istifadəsi mümkün olduqda müvafiq dövlət orqanına (qurumuna) verilməsini nəzərdə tutan "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" 26 aprel 2022-ci il tarixli Qanun qəbul edilmişdir.



**Nail Şükürov,**
***Xızı Rayon Prokurorluğunun müstəntiqi***

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə "Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, habelə bu Məcəllənin 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməlləri təhsil və ya səhiyyə müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində yaxud həbs yerlərində törətmə" ayrıca tövsifedici əlamət kimi nəzərdə tutulmuş, ümumi hissəyə 74.1-ci maddə əlavə edilmişdir. CM-in 74.1-ci maddəsinə görə, CM-in 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən bu xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir. Həmin şəxsin tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv edildikdə məhkəmə şəxsi cinayət məsuliyyətindən azad edir. Bu əlavə, faktiki olaraq satış məqsədi olmadan (yəni narkomaniya xəstəliyi olan) 234.1-ci maddədə müəyyən olunan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayəti törətmiş şəxsi cinayət məsuliyyətindən azad edir.

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 26 aprel 2022-ci il tarixli 516-VIQD nömrəli Qanunu ilə Cinayət Məcəlləsində narkotik vasitələrin və psixotrop maddələrin xeyli və xüsusilə külli miqdarının, prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin xüsusilə külli miqdarının, habelə narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin xüsusilə külli miqdarının anlayışları təsbit edilərək, bu maddələrin qanunsuz dövriyyəsinə görə məsuliyyəti nəzərdə tutan cinayət tərkiblərinin yeni tövsifedici əlamətləri müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 2-ci maddəsində birbaşa göstərilmişdir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir. Bu vəzifələri həyata keçirmək üçün isə Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Cəmiyyət və dövlət üçün təhlükəli olan cinayətlərdən bir qrupu da narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlərdir ki, Cinayət Məcəlləsinin "İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər" bölməsinin 26-cı fəslində - "Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər" fəslində qruplaşdırılmışdır.

***Cinayət Məcəlləsində narkotiklərlə bağlı cinayətlərin aşağıdakı növləri üçün məsuliyyət müəyyənləşdirilmişdir:***

***Maddə 234 - qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsaletmə, əldəetmə, saxlama, daşıma, göndərmə və ya satma;***

***Maddə 235 - narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə;***

***Maddə 237- qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə;***

***Maddə 238 - narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama;***

***Maddə 239 - narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma;***

***Maddə 240 - narkotik vasitə, psixotrop maddə, güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi;***

***Maddə 206.2 - narkotik vasitə, psixotrop maddə, güclü təsir edən və ya zəhərli maddələrin qaçaqmalçılığı;***

Ümumiyyətlə, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını bir-birindən fərqləndirmək üçün ilk öncə onların anlayışlarına nəzər yetirmək lazımdır. Qeyd olunan anlayışlar "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsində öz təsbitini tapmışdır. Belə ki, 1.0.1. Narkotik vasitələr - BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasında, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir.

1.0.2. Psixotrop maddələr - BMT-nin 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır.

1.0.3. Prekursorlar - narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzlarıdır.

Cinayət qanunvericiliyində narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin istintaqı zamanı ən əhəmiyyətli məsələlərdən birincisi narkotik vasitə və psixotrop maddələrin miqdarının müəyyən edilməsidir. Məhz narkotik vasitə və psixotrop maddələrin miqdarı cinayətin növünü, onun törədilməsinə görə məsuliyyətin dərəcəsini müəyyən edir. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin və psixotrop maddələrin miqdarı "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin və psixotrop maddələrin xeyli, külli və xüsusilə külli miqdarlarınagörə siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.

***Məlumatın olsun:***

***- Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri xeyli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma cinayət məsuliyyətinə səbəb olur. ( Cinayət Məcəlləsi 234.1)***

***- Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələrin miqdarı külli və ya xüsusilə külli miqdar olduqda isə cəza daha da ağırlaşır, hətta səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırıla bilərsən.***
***( Cinayət Məcəlləsi 234.1-1 və 234.4-1)***

***- Qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakına, satış məqsədi olmadan az miqdarda hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə isə inzibati məsuliyyət yaradır.( İnzibati Xətalar Məcəlləsi 206)***

Xüsusi vurğulmaq lazımdır ki,narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorları ilə əlaqədar cinayət törətmiş şəxslərin könüllü surətdə hüquq mühafizə orqanlarına gəlib təqsirini etiraf etmələrinə zəmin yaratmaq məqsədilə həm cinayət Məcəlləsinin, həm də İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə qeyd əlavə edilmişdir. Belə ki, Cinayət Məcəlləsinin 234-cü maddəsinin qeydinə əsasən, narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

Həmçinin İnzibati Xətalar Məcəlləsinin satış məqsədi olmadan hazırladığı, əldə etdiyi, saxladığı, daşıdığı və ya göndərdiyi şəxsi istehlak miqdarında narkotik vasitələri, psixotrop maddələri könüllü surətdə təhvil verən şəxs inzibati məsuliyyətdən azad edilir.

**Könüllü surətdə narkotik vasitəni(psixotrop maddəni) təhvil ver, məsuliyyətdən azad ol!**

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə hüquq-mühafizə orqanları tərəfindən cinayət-hüquqi xarakterli cəzaların təyin edilməsinə nail olunsa da, hər birimiz bu sosial bəlanın yayılmasının qarşısının alınmasında işlər görməliyik.

Narkomaniyaya qarşı mübarizəni gücləndirməklə özümüzü, sevdiklərimizi, gələcəyimizi, sağlamlığımızı qoruyur, bununla da dövlətçiliyimizi daha da möhkəmləndirmiş oluruq. Ona görə də heç birimiz bu məsələyə laqeyd yanaşmamalıyıq.

# Balaca rəssamların əl işləri "Dünyamızı qoruyaq" adlı sərgidə nümayiş olunub





**Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar Xızı rayonunda müxtəlif tədbirlər həyata keçirilir.**

Dekabrın 6-da Heydər Əliyev Mərkəzində təşkil olunmuş "Dünyamızı qoruyaq" adlı rəsm sərgisi bu sıradandır.

Əvvəlcə, Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Tünzalə İmranova, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin baş məsləhətçisi Mönsün Bağırov, R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin direktoru Fazil Məmmədov, Xızı Rayon Heydər Əliyev Mərkəzinin direktoru Əzət Qarayeva mövzu ilə bağlı fikirlərini bildirərək, balaca rəssamlara yaradıcılıq uğurları arzulayıblar.

Daha sonra sərgiyə baxış keçirilib. Böyük maraqla izlənilən sərgidə "Yaşıl dünya", "Şuşa qalası" və "Dəmir yumruq" kompozisiyaları nümayiş olunub.

Sonda məktəbli rəssamlara sərgidə iştirakına görə təşəkkürnamələr təqdim olunub.

**"XIZI", R.M.**
**6 dekabr 2024-cü il**

# Məktəblilərlə "Asılı olma, azad ol!" mövzusunda görüş keçirilib







Yetkinlik yaşına çatmayanları sağlam həyat tərzinə təşviq etmək, eləcə də narkomaniya, tütün, alkoqollu içkilər və digər psixatrop maddələrin mənfi təsiri ilə əlaqədar maarifləndirmək məqsədilə şəhid Asim Abdullayev adına Altıağac qəsəbə tam orta məktəbində şagirdlərlə "Asılı olma, azad ol!" mövzusunda görüş keçirilib.

Noyabrın 29-da Xızı Rayon İcra Hakimiyyəti, Abşeron-Xızı Gənclər və İdman İdarəsi, Xızı Rayon Polis Şöbəsi və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə keçirilmiş görüşdə mövzu ətrafında çıxışlar dinlənilib, fikir mübadilələri aparılıb və uşaqları maraqlandıran suallar cavablandırılıb.

Sonda tədbirin mövzusu ilə bağlı videoçarx nümayiş olunub.

**"XIZI", R.M.**
**29 noyabr 2024-cü il**

# Gender əsaslı zorakılıq əleyhinə mübarizə güclənir

**Sosial işçilərin və yerli icma nümayəndələrinin bilik və bacarıqlarını artırmaqla, məişət zorakılığı ilə mübarizədə aidiyyatı dövlət qurumları ilə əməkdaşlığı daha da gücləndirmək və məişət zorakılığı hallarının azaldılmasına töhfə vermək məqsədilə noyabrın 1-də Xızıda "Gender əsaslı zorakılıq əleyhinə mübarizə" mövzusunda təlim keçirilib.**

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin tabeliyində Hüquq və İnsan Haqları İnstitutu tərəfindən Xızı şəhər tam orta məktəbdə təşkil olunmuş təlimdə rayonun idarə, müəssisə və təşkilatlarında işləyən qadınlar, sosial işçilər, müəllimlər və tibb sahəsində fəaliyyət göstərən mütəxəssislər iştirak ediblər.



Təlim prosesində Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin tabeliyində Hüquq və İnsan Haqları İnstitutunun İnsan haqları üzrə təlim və ekspertiza şöbəsinin məsul əməkdaşları Heydər Əliyev və Məleykə Əlizadə Azərbaycanda gender bərabərliyi və gender münasibətləri, cəmiyyətimizdə gender rolları və dinamikası, valideynlik və qayğı məsələləri, ev təsərrüfatı daxilində münasibətlərin dinamikası, cinsi və reproduktiv sağlamlıq münasibətləri barədə ətraflı məlumat veriblər.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

**"XIZI", R.M.**
**1 noyabr 2024-cü il**

# Allah rəhmət eləsin!

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov və Xızı RİHBA-nın işçiləri Xızı şəhər tam orta məktəbin direktoru, əməkdar müəllim

**Fazil İsmayıl oğlu Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov və Xızı RİHBA-nın işçiləri Abşeron-Xızı Regional Təhsil İdarəsinin metodisti Zaur Zeynallıya atası

**Zeynalov Hidayət Həsənbala oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xızı rayonunun təhsil işçiləri Xızı şəhər tam orta məktəbin direktoru,

**Fazil İsmayıl oğlu Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

Xızı rayonunun təhsil işçiləri Abşeron-Xızı Regional Təhsil İdarəsinin metodisti Zaur Zeynallıya atası

**Zeynalov Hidayət Həsənbala oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*





*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h:*
*33080019442400230124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 1791*
*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*